**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**sədrinin 2026-cı il 22 oktyabr tarixli 10-1/3-3-39/2026**
**nömrəli sərəncamı ilə təsdiq edilmişdir**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanlanmış məktubundan irəli gələn vəzifələrə dair**

# YOL XƏRİTƏSİ

| № | Tədbirin adı | İcra müddəti | Məsul şəxs |
|---|---|---|---|
| **1.** | 2027–2030-cu illər üzrə Auditdə rəqəmsal transformasiya üzrə illik Yol Xəritəsinin hazırlanması və icrası | 2026-cı il<br>IV rüb | Q.Əhmədov |
| **2.** | "Audit və Süni İntellekt" mövzusunda beynəlxalq forumun keçirilməsi | 2027-ci il<br>III rüb | Q.Əhmədov, A.Bayramova |
| **3.** | IFAC, EFAA və beynəlxalq peşəkar qurumlarla əməkdaşlıq proqram layihələrinin hazırlanması | İl ərzində | V.Sərdarov, A.Bayramova |
| **4.** | Türk dövlətlərinin audit və mühasibat uçotu üzrə peşə tənzimləyici qurumları arasında əməkdaşlığın institusional inkişaf etdirilməsi və birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi | 2027-ci il | S.Gülməmmədov, Ə.Aslanov, Q.Əhmədov, Ş.Əsgərova, A.Bayramova |
| **5.** | Auditorlar Palatasının üzvləri və əməkdaşlarının rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi üzrə xüsusi təlim proqramının hazırlanması və həyata keçirilməsi | 2027-2030-cu illər | Q.Əhmədov, E.Hacıyeva |
| **6.** | "Gənc auditor" – gənc mütəxəssislərin inkişafı və mentorluq proqramının yaradılması və həyata keçirilməsi | 2027-2030-cu illər | Rəhbərlik, E.Hacıyeva |
| **7.** | Universitetlərlə əməkdaşlıq çərçivəsində kadr hazırlığı proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi və audit peşəsinə istedadların cəlb edilməsi | 2027-2030-cu illər | Rəhbərlik, E.Hacıyeva |
| **8.** | Auditorlar üçün peşə etikası üzrə maarifləndirici tədbirlərin keçirilməsi | 2027-2030-cu illər | Ə.Aslanov, Q.Əhmədov |

| | | | |
|---|---|---|---|
| **9.** | Auditə ictimai etimadın artırılması üzrə maarifləndirici tədbirlərin keçirilməsi | İl ərzində | Q.Əhmədov, R.Cəfərli, Ə.Aslanov, A.Bayramova, |
| **10.** | “Etibarlı audit – strateji tərəfdaş və dəyər yaradan institut kimi” mövzusunda konfransın keçirilməsi | 2027-ci il<br>II rüb | R.Cəfərli |
| **11.** | Beynəlxalq audit və mühasibatlıq təşkilatları ilə yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və əməkdaşlıq xəritəsinin hazırlanması | 2027-ci il | Rəhbərlik, V.Sərdarov, A.Bayramova, |
| **12.** | Beynəlxalq əməkdaşlıq çərçivəsində birgə tədqiqat, təlim və layihələrin həyata keçirilməsi | İl ərzində | Rəhbərlik, R.Cəfərli, V.Sərdarov A.Bayramova |
| **13.** | Kiberrisklər və kibertəhlükəsizliyin audit prosesinə təsiri üzrə metodoloji yanaşmaların hazırlanması | 2027-ci il<br>III rüb | Q.Əhmədov |
| **14.** | Auditorlar Palatasında daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) tam rəqəmsallaşdırılması və “kağızsız hökumət”ə keçidin təmin edilməsi | 2027-ci il | Q.Əhmədov |
| **15.** | Vətəndaşlardan və sahibkarlıq subyektlərindən tələb olunan sənədlər (məlumatlar) üzrə “yalnız bir dəfə” prinsipinin tətbiqi və təkrar sənəd (məlumat) tələbinin qadağan edilməsi | Müntəzəm | Q.Əhmədov<br>V.Cavadov<br>E.Hacıyeva<br>R.Cəfərli<br>Ə.Aslanov |
| **16.** | Auditorlar Palatası tərəfindən vətəndaşlara və sahibkarlara göstərilən xidmətlərin Sİ əsaslı təşkilinin təmin edilməsi | 2027-2028-ci illər | Q.Əhmədov |
| **17.** | Auditorlar Palatasının ödəniş sistemlərinin “ASAN ödəniş” informasiya sisteminə qoşulması | 2026-cı il | Q.Əhmədov |
| **18.** | Qurumlararası inteqrasiya əsasında Auditorlar Palatası tərəfindən göstərilən xidmətlərin tam rəqəmsallaşdırılması | 2026-2028-ci illər | Q.Əhmədov |

| | | | |
|---|---|---|---|
| **19.** | Rəqəmsal dövlət xidmətləri barədə Auditorlar Palatası tərəfindən ictimaiyyətin maarifləndirilməsi | Müntəzəm | Q.Əhmədov |
| **20.** | “Açıq məlumatlar” portalında Auditorlar Palatasında açıq mənbədə olan məlumatların inteqrasiyası | 2026-2028 | Q.Əhmədov<br>B.Orucov<br>N.Alisoy |
| **21.** | Auditorlar Palatası tərəfindən göstərilən xidmətlərdə fiziki təmasın minimuma endirilməsi ilə bağlı tədbirlərin görülməsi | 2026-2027-ci illər | Q.Əhmədov<br>V.Cavadov<br>E.Hacıyeva<br>R.Cəfərli<br>Ə.Aslanov |
| **22.** | Süni intellekt əsaslı auditin aparılmasına dair proqram təminatının hazırlanması və təqdimatı | 2027-ci il | Q.Əhmədov |
| **23.** | Ölkədə maliyyə intizamının və şəffaflığın, hesabatlılığın təmin edilməsinə xidmət edən uzaqgörən və məqsədyönlü dövlət siyasətinin əsas istiqamətlərinin ictimaiyyətə çatdırılması üzrə sistemli tədbirlərin həyata keçirilməsi (İlham Əliyev) | Müntəzəm | Rəhbərlik, struktur bölmələr |
| **24.** | Auditor fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi | 2027-2028-ci illər | Ə.Aslanov |
| **25.** | Auditorlar Palatasının institusional möhkəmləndirilməsi | 2027-2028-ci illər | Rəhbərlik |
| **26.** | Beynəlxalq Audit Standartlarının (BAS) tətbiqinin genişləndirilməsi | Müntəzəm | R.Cəfərli |
| **27.** | Böyük verilənlərin analitikası və Süni İntellekt texnologiyalarının audit prosesinə inteqrasiya istiqamətlərinin müəyyənləşdirilməsi | 2027-ci il | Q.Əhmədov |
| **28.** | Audit proseslərində şəffaflığın və operativliyin artırılması | Müntəzəm | Q.Əhmədov, R.Cəfərli, Ə.Aslanov |
| **29.** | İnnovativ audit metodologiyasının yaradılması və tətbiqi | 2028-2029-cu illər | Q.Əhmədov |
| **30.** | Müstəqil audit sahəsində kadr potensialının gücləndirilməsi | 2026-2030-cu illər | E.Hacıyeva |